*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 48−53
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 48−53
DOI: https://doi.org/10.36719/2706-6185/61/48-53

# Monqol imperiyasının yaranması və onun ilk dövrü

**Samir Baxşəliyev**

***Xülasə.*** *Məqalədə üç fərqli müəllifin monqol tayfa sistemi, Monqol imperiyası ilə bağlı fikirləri nəzərdən keçirilmişdir. Monqollar fəth etdikləri geniş ərazilərdə siyasi hakimiyyətlərini möhkəmləndirmək məqsədi ilə hərbi və inzibati idarəetmə sistemi qurmuşdular.*

*Çingiz xanın tarixdə rolunu birmənalı qiymətləndirmək olmaz. O, dağınıq monqol tayfalarını birləşdirərək vahid Monqol imperiyasını yaratdı. Qurduğu dövlətdə güclü idarəetmə sistemi və yüksək təşkilatlanmış ordu formalaşdırdı.*

*Qərbdə xristian və islam orduları arasında qanlı döyüşlər gedən zaman Qədim Göytürk xaqanlığının ərazisində yaranan böyük Monqol dövləti qısa müddət ərzində sürətlə genişlənərək bir çox dövlətlərin süqutuna səbəb olmuşdur. Bu dövlətin sürətli yüksəlişi və genişlənmə dövrü tarixçi alimlərinin ən çox araşdırdığı mövzulardan biri olmuşdur. Xüsusilə bu araşdırmalarda monqolların hərbi gücünün formalaşmasında mühüm rol oynayan amillər tarixi mənbələr əsasında təhlil edilmişdir. Bununla yanaşı, Çingiz xanın işğalçı yürüşləri çoxsaylı insan itkilərinə, şəhərlərin dağıdılmasına və geniş ərazilərdə ağır sosial-iqtisadi nəticələrə səbəb olmuşdur. Müqavimət göstərən xalqlara qarşı sərt tədbirlər və kütləvi qırğınlar onun yürüşlərinin nəticəsidir. Çingiz xan, sözsüz ki, böyük dövlət qurucusu, həm də görkəmli sərkərdədir. Lakin eyni zamanda yürüşləri milyonlarla insanın taleyinə mənfi təsir göstərmiş işğalçı hökmdardır.*

***Açar sözlər:*** *Monqol dövləti, Çingiz xan, Fəzlullah Rəşidəddin, imperiya, işğal*

---

Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçtbaxshaliev81@mail.ru
Daxil oldu: 14 Fevral 2025; Qəbul edildi: 24 Aprel 2026: Onlayn dərc edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# The Emergency of the Mongolian Empire and Its Early Period

**Samir Bakhshaliev**

***Abstract.*** *The article reviews the views of three different authors on the Mongol tribal system and the Mongol Empire. The Mongols established a military and administrative system of governance in order to strengthen their political power in the vast territories they conquered.*

*The role of Genghis Khan in history cannot be assessed unambiguously. He united the scattered Mongol tribes and created a unified Mongol Empire. He formed a strong governance system and a highly organized army in the state he founded.*

*The great Mongol state, which emerged on the territory of the Ancient Goyturk Khaganate during the bloody battles between Christian and Islamic armies in the West, expanded rapidly in a short period of time, causing the collapse of many states. The rapid rise and expansion period of this state has been one of the most studied topics by historical scholars. In particular, in these studies, the factors that played an important role in the formation of the Mongols' military power have been analyzed*

*based on historical sources. At the same time, Genghis Khan's conquest campaigns caused numerous human losses, the destruction of cities, and severe socio-economic consequences in vast territories. Harsh measures and mass killings against the peoples who resisted were the result of his campaigns. Genghis Khan is undoubtedly a great state builder and an outstanding commander. However, at the same time, he is an aggressive ruler whose campaigns had a negative impact on the fate of millions of people.*

***Keywords:*** *Mongol state, Genghis Khan, Fazlullah Rashiduddin, empire, occupation*

---

Baku State University, PhD in History, Baku, Azerbaijan
E-mail: baxshaliev81@mail.ru
Received: 14 February 2025; Accepted: 24 April 2026: Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

İmperiyaların yaranması, onun mürəkkəb idarəçilik sistemi, dövlətin siyasi həyatı ilə əlaqədar məsələlər hər zaman tarixi tədqiqatlarda diqqət mərkəzində olmuşdur. Belələrindən biri də XIII əsrin əvvəllərində yaranmış və üç əsrdən çox Avropa qitəsinin bir hissəsini asılı salmış Monqol imperiyasıdır.

Bu imperiyanın yaranması haqqında tarixçilər tərəfindən müxtəlif tarixi dönəmlərdə, xüsusilə də Sovet və Rusiya tarixşünaslığında çoxlu əsərlər yazılsa da, hələ də elə problemlər var ki, ya indiyədək geniş təhlil olunmamışdır, ya da yanaşmalar ziddiyyətli və ya birtərəfli olmuşdur. Bu bir həqiqətdir ki, Monqol imperiyası, onun banisi Çingiz xan haqqında ilk mənbələrdə və tarixi ədəbiyyatlarda məlumatlar geniş olsa da, yanaşmalar obyektiv yanaşmadan uzaqdır.

Hazırkı yazıda problemin araşdırılması istiqamətində obyektiv təhlillər, müqayisələr əsasında yeni fikir və yanaşmalar sərgilənir.

## Metodlar

Məqalədə mövzunu mövcud elmi ədəbiyyat və ilk mənbələrdəki geniş məlumatlara əsaslanaraq müxtəlif yanaşmaları hərtərəfli təhlil etməyə cəhd edilmişdir. Bu zaman çoxsaylı məlumatlar araşdırılmış, aparılmış müqayisələr əsasında əldə edilmiş əsas nəticələr ümumiləşdirilmişdir. Problemi daha dərindən anlamaq, onun mahiyyətini obyektiv qiymətləndirmək və səbəb-nəticə əlaqələrini müəyyən etmək üçün müxtəlif elmi metodlardan istifadə edilmişdir. Tarixi-təsviri və tarixi-müqayisəli metodlar mövzununn ortaq spesifik xüsusiyyətlərini müəyyən etmək üçün istifadə edilmişdir. Bu metodlar müxtəlif müəlliflər tərəfindən məsələnin qavranılmasında fərqləri müəyyən etməyə kömək etmişdir.

## Nəticələr

Dünya tarixində Asiya qitəsindən başlayaraq ən genişmiqyaslı hərbi yürüşləri həyata keçirən Çingiz xan və onun varisləri XIII əsrin əvvəllərində Mərkəzi Asiyada qüdrətli və nəhəng bir imperiyanın əsasını qoydular. Bu imperiya qısa zamanda Avrasiya ərazilərinin böyük hissəsini işğal edərək siyasi, hərbi və mədəni baxımdan dövrün ən güclü dövlətlərindən birinə çevrildi (Rəcəbli, 2013, s.158). Erkən dövrlərdə monqollar ayrı-ayrı qəbilələr və qəbilə birlikləri şəklində yaşayırdılar. Hər bir qəbilə və qəbilə birliyi öz daxili idarəetmə sisteminə malik idi və onların başında xan adlanan rəhbər dayanırdı. Bu siyasi təşkilatlanma forması sonradan monqol cəmiyyətinin vahid imperiya halında

birləşməsi üçün əsas zəmin yaratmışdır. Tarixdə monqollar barədə ilk məlumatlar hesab edilən və VII–IX əslər də qələmə alınmış Tan dövrü Çin salnamələrinə görə, Şivey tayfalarının tərkibində olan monqol qəbilələrinə "Moxefu" adlı başçı rəhbərlik etmişdir (Dugarov, 2016, s.178).

Monqol tarixi üzrə tədqiqatçıların bir hissəsi onların Şimali Asiya ərazisindən axan Amur çayının cənub sahillərində, Sunqar çayının Amura birləşdiyi bölgənin qərbində və Kiçik Xinqan dağlarının şərqində yaşadıqlarını qeyd edir. XIII əsrdə yaşamış Roma papası IV İnnokentinin elçisi, Fransiskan rahibi İohann de Plano Karpini müəllifi olduğu və Avropa yazılı ədəbiyyatının ən məşhur abidələrindən biri hesab edilən "Monqol tarixi" əsərində qeyd edilir ki, "Monqal adı ilə bilinən ərazilərdə Yeka-Monqal, Su-Monqal, Mərkid və Mekrit adlı dörd avtoxton etnik-siyasi birlik yaşayır ki, bunlardan da Su-Monqallar ərazilərindən keçən "Tatar" çayının adı ilə özlərini "tatarlar" adlandırırlar" (Covanni, 2022, s.15).

Hülagülər dövlətinin üç qüdrətli hökmdarının vəziri olmuş tarixçi Fəzlullah Rəşidəddin müəllifi olduğu "Cəmi ət-Təvarix" əsərində "Monqolların meşə və çöl qəbilələrinə bölündüyünü, lakin meşə qəbilələrində ibtidai icma quruluşunun dağılması prosesi çöl qəbilələrinə nisbətən daha ləng getdiyini" qeyd edir (Domanin, 2011, s. 77). Sovet dövrünün görkəmli monqolşünası, akademik Boris Vladimirtsov da monqol tayfa sistemini təhlil edərkən Fəzlullah Rəşidəddinin bölgüsünə istinad edərək monqol qəbilələrini meşə və çöl qəbilələrinə bölərək çöl qəbilələrinin həm say, həm də siyasi baxımdan monqol ictimai həyatında aparıcı rol oynadığını qeyd etmışdir (Vladimirtsov, 2022, s. 52).

Məqaləmizdə üç fərqli müəllifin monqol tayfa sistemi ilə bağlı fikirləri nəzərdən keçirilmişdir. Bu fikirlər oxşar məntiqi xətt üzərində qurulsa da, İohann de Plano Karpininin mövzu ilə bağlı fikirlərini elmi baxımdan zəif hesab edirik. Belə ki, müşahidələri əsasən şəxsi səfər təcrübəsinə söykənən P.Karpini monqol qəbilələrinin ictimai həyatını təsvir edərkən "tatar" adının guya "Tatar çayı" ilə əlaqəli olduğunu iddia edir.

Bu fikir maraqlı görünsə də, tarixi fakt kimi qəbul edilə bilməz. Müasir tədqiqatlar göstərir ki, "tatar" etnonimi qədim türk tayfa birliklərinin adları ilə bağlıdır və onun çay adından yaranması nə Çin, nə də fars mənbələrində oz təsdiqini tapır. Nəticə etibarı ilə, P.Karpininin bu izahı etimoloji baxımdan səhv hesab olunur.

Fikrimizcə, daha etibarlı məlumatı Fəzlullah Rəşidəddin verir. O, monqol tayfalarını meşə və çöl tayfalarına ayırır, onların həyat tərzində fərqlər olduğunu bildirir. Bu bölgü monqol cəmiyyətinin iqtisadi və siyasi reallıqlarını əks etdirdiyi üçün daha real görünür. Boris Vladimirsov isə F.Rəşidəddinin fikirlərini elmi baxımdan inkişaf etdirərək çöl tayfalarının siyasi baxımdan daha güclü olduğunu qeyd edir. Ümumilikdə, müəlliflərin fikirlərində müəyyən oxşarlıq olasa da, Fəzlullah Rəşidəddin və Boris Vladimirsovun monqol tayfa sistemi haqqında verdiyi məlumatları daha əsaslı və mənbələrə uyğun olduğu üçün tarixi reallığa daha yaxın yanaşma kimi qiymətləndirə bilərik.

Qərbdə xristian və islam orduları arasında qanlı döyüşlər gedən zaman Qədim Göytürk xaqanlığının ərazisində yaranan böyük Monqol dövləti qısa müddət ərzində sürətlə genişlənərək bir çox dövlətlərin süqutuna səbəb olmuşdur. Bu dövlətin sürətli yüksəlişi və genişlənmə dövrü tarixçi alimlərinin ən çox araşdırdığı mövzulardan biri olmuşdur. Xüsusi ilə bu araşdırmalarda monqolların hərbi gücünün formalaşmasında mühüm rol oynayan amillər tarixi mənbələr əsasında təhlil edilmişdir.

Temuçin adlı monqol hökmdarı 1206-cı ildə Monqolustandakı tayfaları öz hakimiyyəti altında birləşdirərək Çingiz xan adı ilə böyük Monqol imperiyasının əsasını qoydu (Morgan, 2007, s. 71). Bununla da, monqollar Çingiz xanın rəhbərliyi altında siyasi təşkilatlanma prosesini başa çatdıraraq, monqol kimliyi əsasında ilk dövlətlərinin əsasını qoydular. Dövləti qurduqdan sonra Çingiz xan orduda islahat edərək "noyon" adlanan hərbi rütbə yaratdı və onu yaxın qohumlarına verərək vahid

komandanlıq sistemi formalaşdırdı. Xanın bu rütbəni əsasən yaxın qohumlarına verməsi, mərkəzi hakimiyyətin dayanıqlığını təmin etməyə yönəlmişdi (S.B). Monqol ordusu məhz bu sistem sayəsində dövrünün ən qüdrətli hərbi qüvvələrindən birinə çevrildi və bu imperiyanın genişlənmə siyasətini mümkün edən əsas amillərdən biri oldu. Çingiz xanın yeritdiyi geniş işğalçılıq siyasəti nəticəsində Yapon dənizindən Aralıq dənizinə, həmçinin Karpat dağlarınadək geniş ərazilərdə yerləşən dövlətlər Monqol hakimiyyətinə tabe edildi (Timothy, 2007, s. 35).

Monqollar işğal etdikləri geniş ərazilərdə siyasi hakimiyyətlərini möhkəmləndirmək məqsədi ilə hərbi və inzibati idarəetmə sistemi qurdular. 1211-ci ildə Çingiz xanın rəhbərliyi ilə Şimali Çinə hücum edən monqol ordusu bir sıra döyüşlərdən sonra ölkənin dərinliklərinə doğru irəliləyərək 1215-ci ildə Cin sülaləsinin paytaxtı olan Pekin şəhərini işğal etdilər (1983, s. 134).

Çinə hücumun ilkin olaraq əsas məqsədi Cürçen qəbilələri tərəfindən qurulan Sin sülaləsini zəiflətmək və sərhəd bölgələrində təhlükəsizliyi təmin etmək idi. Lakin monqol ordusunun əldə etdiyi ardıcıl qələbələr bu yürüşlərin mahiyyətini dəyişərək bölgənin genişmiqyaslı işğalı ilə nəticələndi. Pekinin işğalından sonra imperiyasının sərhədlərini genişləndirmək istəyən Çingiz xan diqqətini Mərkəzi Asiyanın ən zəngin və qüdrətli dövlətlərindən biri olan Xarəzmşahlar dövlətinə yönəltdi. Otrar şəhərində monqol tacirlərinin casusluqda ittiham edilərək edam edilməsi iki dövlət arasında münasibətləri gərginləşdirdi. Çingiz xan bu hadisəni bəhanə edərək böyük ordu ilə Xarəzmşahlar dövləti üzərinə hücuma keçdi. Tərəflər arasında baş verən üç illik müharibə nəticəsində 1221-ci illərdə Xarəzmşahlar dövləti zəifləyərək süqut etdi (İvanov, 1977, s.148).

Hesab edirik ki, həm Sin dövləti, həm də Xarəzmşahlar dövlətinin monqollar tərəfindən qısa müddətdə məğlub edilməsi hər iki dövlətin daxili zəiflikləri və strateji səhvlərinin nəticəsi idi. Cürçenlər tərəfindən qurulan Sin imperiyası saray daxilində gedən çəkişmələr və ölkəni bürüyən kəndli üsyanları nəticəsində ciddi şəkildə zəifləmişdi. Bu səbəbdən də onlar monqol hücumları qarşısında davam gətirə bilmədilər. Monqol hücumu ərəfəsində Xarəzmşahlar dövlətində mövcud olan daxili siyasi çəkişmələr ölkənin müdafiə qabiliyyətini zəiflətmişdi. Xüsusilə II Əlaəddin Məhəmmədin hakimiyyəti dövründə iri feodallar və valilər arasında hakimiyyət uğrunda mübarizə gedirdi. Şah öz sərkərdələrinə etibar etmədiyindən ordunu vahid rəhbərlik altında toplamaqdan çəkinmiş və ölkənin içərilərinə doğru geri çəkilmişdi. Nəticədə şəhər və yaşayış məntəqələrinin müdafiəsi hərbi işdən anlayışı olamayan yerli əhalinin üzərinə düşmüşdü. Lakin onların qüvvələri vahid rəhbərlik və təşkilatlanmadan məhrum olduqları üçün monqol hücumlarına qarşı gərəkən müqaviməti göstərə bilmədilər. Monqollardan qaçaraq Xəzər dənizinin cənub-şərqində yerləşən Abaskun adasına sığınan Xarəzmşah II Məhəmməd ailəsinin bir neçə üzvünün və xəzinəsinin monqolların əlinə keçməsi xəbərini aldıqdan sonra ağır xəstələnərək dünyasını dəyişdi (Ağasıyev, 2017, s. 161).

Monqol sərkərdələri Cəbə noyon, Subutay bahadur və Toğaçar Kürəkənin komandanlığı altında 30 minlik monqol ordusu Çingiz xanın əmri ilə II Məhəmmədin təqibinə göndərildi. Lakin sonradan şahın öldüyü xəbərini alan monqollar Qafqaza və Şərqi Avropa ölkələrinə doğru yönəldilər. 1220-1221-ci illərdə Qafqaza yürüş edən monqol ordusu Krıma qədər irəliləyərək Sudak şəhərini işğal etdi (1983, s. 135).

İlk olaraq Azərbaycana kəşfiyyat xarakterli yürüş edən monqol ordusu Zəncan, Ərdəbil, Sərab və digər bölgələri qarət etdi, bəzi şəhərlər isə xərac verməklə dağıntıdan xilas oldu. Ərəb əsilli məşhur İslam tarixçisi İbn əl-Əsir özünün "əl-Kamil fit Tarix" əsərində monqol yürüşlərinin Qafqaza, xüsusilə də Azərbaycana təsiri barədə geniş məlumat verir. Müəllif yazır: "Onlar Azərbaycanın və Arranın şəhərlərinə hücum etdilər, onları dağıtdılar, əhalisinin çoxunu öldürdülər. Yalnız az adam sağ qaldı və bütün bunlar bir ildən az müddətdə baş verdi" (İbn al Asir, 2006, s. 96). Monqolların Gürcüstana ilk yürüşü çariça Tamaranın oğlu IV Laşa Giorginin dövrünə təsadüf edir. Tərəflər

arasında baş verən ilk döyüşdə monqollar hiyləgər hərbi taktikalardan istifadə edərək gürcü ordusunu məğlub etdilər (Berdzeneshvili, 2000, s. 158).

1223-cü ildə Kalka çayı sahilində rus-qıpçaq qüvvələri üzərində qələbə qazanan monqollar yürüşlərini davam etdirsələr də, İdil bulqarları ilə döyüşdə məğlubiyyətə uğrayaraq vətənlərinə doğru geri çəkilməyə məcbur oldular (Əhmədova, 2019, s. 94). Rus knyazlıqları Kalka döyüşü ərəfəsində feodal parçalanması vəziyyətində idi və vahid mərkəzləşdirilmiş orduya malik deyildi. Hər bir knyaz öz maraqlarını üstün tutduğundan ümumi hərbi rəhbərlik formalaşmamışdı. Qıpçaqlarla ittifaq zəif olduğuna görə vahid komandanlıq təmin edilməmişdi. Nəticədə müttəfiq qoşunları arasında əlaqəsizlik yarandı və bu vəziyyət monqollar qarşısında məğlubiyyətin əsas səbəb oldu (Ponting, 2020, s. 403).

Çingiz xan 1225-ci ildə vətəninə qayıdaraq həyatının son illərini Tanqut dövlətinə qarşı yürüşlərdə keçirdi, nəticədə Tanqut dövləti tamamilə süqut etsə də, bu yürüş onun son  yürüşü oldu (Ponting, 2020, s. 405). Çingiz xanın tarixi rolunu birmənalı qiymətləndirmək olmaz. O, dağınıq monqol tayfalarını birləşdirərək vahid Monqol imperiyasını yaratdı. Qurduğu dövlətdə güclü idarəetmə sistemi və yüksək təşkilatlanmış ordu formalaşdırdı. Onun hakimiyyəti illərində Asiyanın böyük bir hissəsində ticarət yollarının təhlükəsizliyi təmin edildi və  Şərqlə Qərb arasında iqtisadi əlaqələrin genişlənməsi üçün əlverişli şərait yarandı. Bununla yanaşı, Çingiz xanın işğalçı yürüşləri çoxsaylı insan itkilərinə, şəhərlərin dağıdılmasına və geniş ərazilərdə ağır sosial-iqtisadi nəticələrə səbəb olmuşdur. Müqavimət göstərən xalqlara qarşı sərt tədbirlər və kütləvi qırğınlar onun yürüşlərinin nəticəsidir.

Fikrimizcə, Çingiz xan heç sözsüz ki, böyük dövlət qurucusu, həm də görkəmli sərkərdədir. Lakin eyni zamanda yürüşləri milyonlarla insanın taleyinə mənfi təsir göstərmiş işğalçı hökmdardır. Rəvayətə görə, Çingiz xan ölümünün yaxınlaşdığını xəbər verən bir yuxu görmüşdü. Bundan sonra o, oğulları Ugedey və Tulini yanına çağıraraq Ugedeyi öz varisi seçdiyini və digər oğullarının da ona itaət etməsini əmr etdi. Mənbələrin verdiyi məlumata əsasən yürüşlərin birində Çingiz xan xəstələndi. Ölüm yatağında olanda varislərini yanına çağırdı və  "Əgər ölsəm, bunu gizli saxlayın", deyə əmr verərək 1227-ci ilin avqust ayında, 72 yaşında vəfat etdi (Abraham, 2008, s. 144).

## Müzakirə

Monqol dölətinin qısa müddətdə güclü imperiyaya çevrilməsi, özündən sayca qat-qat çox olan xalqları və böyük əraziləri tabe edə bilməsi, hətta xeyli vaxt özündən asılı halda saxlaması səbəbləri çox müxtəlif olsa da, bu səbəblər özləri bəzi suallar doğurur. Monqolların qələbələrinin mühüm səbəblərindən biri onun yarandığı və mövcud olduğu tarixi siyasi şərait idi. Monqolların qələbələrinin mühüm səbəblərindən biri onların yürüşlərinin keçəcəyi ərazilərin xalqları arasında yaratdığı qorxu siyasəti idi. Müqavimət göstərən şəhərlərin ağır şəkildə cəzalandırılması xəbərləri sürətlə yayılırdı. Bu isə digər şəhərlərdə müqavimət əzmini zəiflədir, təslim olma meylini artırırdı. Beləliklə, monqollar bir çox hallarda döyüş başlamazdan əvvəl rəqiblərinin iradəsini qıra bilirdilər. Bu səbəblərin digərlərini monqolların döyüş taktikaları, sərt intizam qaydaları və digər səbəblərlə də əlaqələndirmək olar.

## Nəticə

Gəldiyimiz nəticələr və qənaətlər isə müxtəlifdir. Onlardan yalnız iki ən mühümünü qeyd etməklə kifayətlənirik. Mühüm nəticələrdən biri budur ki, bütün imperiyaların gec-tez tarixə qovuşacağı haqqında tarixin ibrət dərsini heç kim unutmamalıdır. Bu gün imperiya siyasəti və ya onu bu və digər formada davam etdirən dövlətlərin də aqibətinin başqa cür olacağı qeyri-mümkündür.

**Ədəbiyyat**


1. Ağasıyev, İ. (2017). *Azərbaycan tarixi*. AƏSMA mətbəəsi.
2. Berdzeneshvili, N., Canashia, S., & Cavahishvili, İ. (2000). *Gürcüstan tarixi*. Sorun Yayınları.
3. Constantin d'Ohsson, A. (2008). *Moğol tarixi*. Nesnel Yayınları.
4. Covanni del Plano Karpini. (2022). *İstoriya mongolov*. İnstitut Rossiyskoy İstorii RAN.
5. Domanin, A. (2011). *Mongolskaya imperiya Chingizidov: Chingis xan i ego preemniki*. Sentrpoligraf.
6. Dugarov, B. (2016). *Kurs leksii po istorii Mongolii*. Buryatskoqo Gosudarstvennogo Universiteta.
7. Əhmədova, N., Hüseynova, S. (2019). *Azərbaycan tarixi*. ADPU mətbəəsi.
8. İbn al-Asir. (2006). *Al-Kamil fi-t-tarix*. Taşkent.
9. İstoriya Mongolskoy Narodnoy Respubliki. (1983). Nauka.
10. İvanov, M. (1977). *İstoriya İrana*. MQU.
11. Morgan, D. (2007). *The Mongols*. Wiley-Blackwell.
12. Ponting, C. (2020). *Dünya tarihi*. Alfa Basım Yayım Dağıtım Yayınevi.
13. Rəcəbli, Q. (2013). *Azərbaycan tarixi: Oçerklər*. Elm və təhsil.
14. Timothy, M. (2007). *The Mongol art of war: Chinggis Khan and the Mongol military system*. Pen & Sword Press.
15. Vladimirtsov, B. (2022). *Obshestvennıy stroy mongolov: Mongolskiy kochevoy feodalizm*. Akademicheskiy Proekt.